# ULU ÖNDƏRİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ

## HEYDƏR ƏLİYEV FONDU

Heydər Əliyev Fondu tariximizə müstəqil dövlət qurucusu kimi daxil olmuş Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır.2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın birinci xanımı, ISESCO-nun Xoşməramlı səfiri Mehriban Əliyevadır.



**Ünvan:** Azərbaycan Respublikası, AZ 1000, Bakı ş., Niyazi küç., 5
**Telefon:** (994 12) 5251331, (994 12) 5251335
**Faks:** (994 12) 4048031

# HEYDƏR ƏLİYEV MƏRKƏZLƏRİ

## BAKI ŞƏHƏRİ



Heydər Əliyev Mərkəzi — Azərbaycanın paytaxtı Bakı şəhərində, Heydər Əliyev prospektində inşa edilmiş araşdırma və beynəlxalq dialoq mərkəzi. Mərkəz böyük bir kompleksdən ibarət olmaqla özündə iri konqres zalı, Heydər Əliyev Muzeyi, sərgi salonları, adminstrativ ofisləri birləşdirir. Mərkəz Azərbaycanın üçüncü prezidenti Heydər Əliyevin adını daşıyır. Mərkəzin layihəsi 2007-ci ildə məşhur memar Zaha Hadid tərəfindən işlənmişdir. Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərovdur. Mərkəz müasir Bakının simvollarından biri hesab edilir.

Mərkəzin loqosu Azərbaycanın keçmişdən gələcəyə doğru baxışlarını, Azərbaycandakı tərəqqini, ölkənin sabahını simvolizə edir. Mərkəzin loqosunun rəngi - gümüşü rəng özündə bütün maneələri aşmağı, hədəfə doğru addımlamağı ehtiva edir. Gümüşü rəng liderlik, mübarizlik, dinamiklik, müdriklik, şəffaflıq, inkişaf və innovasiya rəmzidir.

Loqonun xətləri Heydər Əliyev Mərkəzinin binasının anlamı ilə həmahənglik yaradaraq Azərbaycanın dinamik inkişafını, beynəlxalq aləmdəki birincilik uğrunda hədəflərini, Vətənə, xalqa bağlılığı yaşatmaq kimi dəyərlərlə gələcəyə irəliləyişi təcəssüm etdirir.

Heydər Əliyev Mərkəzinin loqosu qurumun üzərinə düşən vəzifələri rəmzi olaraq təsvir etməklə yanaşı, milli və bəşəri dəyərlərin, dövlətçilik ənənələrinin gələcək nəsillərə ötürülməsi şüarını tərənnüm edir.

Mərkəzin “Gələcəyə dəyərlərlə!” şüarı da bu ideyadan yaranıb. Xalq arasında "İmza Sarayı" adı ilə də tanınır.

## YASAMAL RAYONU

20 dekabr 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə açılmış Bakı şəhəri Yasamal rayonunda yerləşən Heydər Əliyev Mərkəzinin əsas məqsəd və vəzifələri xalqımızın Ümumilli lideri, Müstəqil Azərbaycan Respublikasının qurucusu Heydər Əlirza oğlu Əliyevin siyasi irsini, həyat və fəaliyyətini öyrənmək, araşdırmaq, gələcək nəsillərə aşılamaq, onun memarı olduğu dövlətçilik ənənələrini yaşatmaq, inkişaf etdirmək və cəmiyyətimizin bütün sahələrində tətbiq olunmasına dəstək verməkdir. Mərkəzin daxilində bir neçə bölməsi fəaliyyət göstərir.



Mərkəzin "Heydər Əliyev Dövlətçilik İrsi və Salnamə" bölməsi Azərbaycan xalqının Ümummilli lider Heydər Əliyevin fəaliyyətinə, irsinə həsr olunan və eləcə də dövlət quruculuğuna, müasir inkişaf istiqamətlərinə, ölkədə, regionda və beynəlxalq aləmdə aktual olan müxtəlif mövzularda mühazirələrin təşkili, dəyirmi masa, disput, elmi praktiki və nəzəri konfrans, seminarlar keçirmək, Heydər Əliyevin həyat və fəaliyyətinə aid sənədli kinofilmlər nümayiş etdirmək üçün nəzərdə tutulmuşdur. Bu zalda keçirilən tədbirlərdə 50-60 nəfər iştirak edə bilər.

Mərkəzin "Kitabxana və İnformasiya Texnologiyaları" bölməsi kitabxana və informasiya otağından ibarətdir. Tərtib olunmuş cədvələ əsasən kitabxanaya gələcək yeniyetmə və gənclər Heydər Əliyevin siyasi irsini, fəaliyyətini, qurduğu dövlətçilik ənənələrini, azərbaycançılıq ideyasını kitabxana fondunda olan Ulu Öndər Heydər Əliyevə həsr olunmuş kitab, jurnal, broşun və digər çap materiallarından öyrənərək yararlanırlar.

Mərkəzin "Muzey" bölməsində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin bütün ömür yolunu və fəaliyyətini əks etdirən 281 ədəd eksponat toplanmışdır. Mərkəzin V mərtəbəsi Heydər Əliyevin böyük tunc heykəlindən, Ulu Öndərin həyatı, fəaliyyəti və daxili siyasətinə həsr olunmuş 122 ədəd fotoşəkildən, 13 ədəd diplom və təltiflərdən, 7 ədəd mətnlə tərtib olunmuş şüşə lövhədən ibarətdir. Mərkəzin IV mərtəbəsi Heydər Əliyevin xarici siyasətini əks etdirən 72 ədəd fotoşəkil, 10 ədəd mətn, rəsm əsərləri və 4 ədəd tunc heykəllərlə tərtib edilmiş zaldan ibarətdir.

## QARADAĞ RAYONU



Qaradağ rayonu Lökbatan qəsəbəsində yerləşən Heydər Əliyev Mərkəzi 21 yanvar 2011-ci ildə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Qaradağ rayonuna səfəri zamanı açılmışdır. Burada ulu öndər Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və təbliği üçün hər cür şərait yaradılmışdır. Heydər Əliyev Mərkəzində nümayiş olunan fotolar ümummilli liderin Qaradağ rayonuna səfərlərini, böyük sənaye obyektlərinin açılışında iştirakını əks etdirir.

Lökbatanda Heydər Əliyev Mərkəzinin yaradılması müasir Azərbaycan tarixinin, Heydər Əliyev irsinin, ulu öndərin zəngin siyasi fəaliyyətinin öyrənilməsi və təbliği, Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliğ olunması baxımından, böyük önəm daşıyır.

Mərkəzdə ümummilli liderin həyatından bəhs edən nəşrlərin toplandığı kitabxana, kiçik kafeteriya və müasir avadanlıqlarla təchiz olunmuş internet zalı fəaliyyət göstərir. Burada 50 yerlik konfrans və 220 yerlik iclas zalları var eləcə də, 3D formatında hazırlanan filmlərin nümayişi üçün avadanlıqlar mövcuddur.

## SURAXANI RAYONU




Suraxanı rayon Heydər Əliyev Mərkəzi “Heydər Əliyev parkı”nın ən gözəl guşəsində, Suraxanı Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının sağ tərəfində özünəməxsus xüsusi bir layihə ilə inşa edilmişdir.

Mərkəzin önündəki meydanda Azərbaycan xalqının Ümumilli Lideri, Ulu Öndər Heydər Əliyevin bürüncdən hazırlanmış möhtəşəm abidəsi ucalır. Mərkəz 2009-cu il may ayının 4-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən açılmışdır.

Mərkəzin 1-ci mərtəbədə Ulu Öndərin Suraxanı rayonunda müxtəlif tədbirlərdə iştirakını əks etdirən fotoşəkillərdən ibarət stend vardır. Mərkəzdə Multimedia və Rəsm studiyaları, Elektron kitabxana fəaliyyət göstərir. Mərkəzdə həmçinin, bir çox ictimai-siyasi tədbir keçirilir.

Mərkəzin 2-ci mərtəbədəki geniş sərgi salonunda “Ulu Öndər” əsəri ilə yanaşı Ulu Öndərin həyatının müxtəlif anlarını, fəaliyyətinin əks etdirən çoxsaylı şəkillər nümayiş etdirilir. 2-ci mərtəbədə həmçinin mərkəzi ziyarətə gəlmiş qonaqların, məktəblilərin, tələbələrin Ulu Öndərin zəngin irsini, həyat və fəaliyyətinin müxtəlif dövrlərini öyrətmək məqsədi ilə məşğələlər keçmələri üçün xüsusi fərdi səs sistemi olan oturacaqlar və plazma panellərlə təmin olunmuş 3 elektron auditoriya yaradılmışdır.

3-cü mərtəbədə foto slaydlarla təchiz olunmuş rəqəmsal çərçivələrdə “Heydər Əliyev Azərbaycan xalqının Ümumilli Lideridir” mövzusunda elektron sərgi nümaiş etdirilir, həmçinin müasir texnoloji avadanlıqlarla təchiz olumuş, audi, video sistemlə müşayyət olunan konfrans zalı da vardır.

Mərkəzin fəaliyyəti ilə daha geniş tanış olmaq üçün girişdə elektron informasiya köşkü quraşdırılmışdır.

## XIRDALAN RAYONU



Xırdalanda orijinal layihə əsasında tikilən Heydər Əliyev Mərkəzi Ümummilli Liderin xatirəsinə dərin ehtiramın parlaq nümunəsidir. Burada dünyanın nüfuzlu siyasətçilərindən olan ulu öndər Heydər Əliyevin Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, bu böyük şəxsiyyətin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində müstəqilliyinin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhrandan inkişaf yoluna çıxarılması, güclü ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən foto, kitab və digər vəsaitlər geniş yer alıb.

Mərkəzin özəlliyini artıran mühüm amillərdən biri də burada interaktiv məlumat tablolarına da geniş yer verilib.

Mərkəzdə Ümummilli Liderin xatirəsinin əbədiləşdirildiyi muzey də yaradılıb. Ekspozisiya zallarının hamısı zəruri avadanlıqla təchiz olunub. Mərkəzin funksionallığını artırmaq məqsədilə burada gənclər üçün müzakirə və diskussiya zalları qurulub, elektron kitabxana yaradılıb. Sərgi zalından əlavə, mərkəzdə

linqafon, internet və rəssamlıq otaqları, fotostudiya və rəqs zalı da var. Bütün bunlar gənclərin müxtəlif sənətlərin sirlərinə yiyələnməsinə, onların asudə vaxtının səmərəli təşkil edilməsinə geniş imkanlar açır.

## SUMQAYIT ŞƏHƏRİ



2016-cı ildə açılışı olan Mərkəzin foyesində ümummilli lider Heydər Əliyevin büstü ucaldılıb. Foyedə, həmçinin ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizdə gənclərə göstərdikləri yüksək diqqət və qayğını əks etdirən fotolardan ibarət guşələr yaradılıb.

Heydər Əliyev parkında inşa olunan Mərkəzin 3 mərtəbədən və mansarddan ibarətdir. Mərkəzdə Ulu Öndərin həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar nümayiş etdirilir. Ümummilli lider Heydər Əliyevin ölkəmizdə, o cümlədən Sumqayıtda müxtəlif obyektlərin açılışında iştirakının, ictimaiyyətin nümayəndələri ilə görüşlərinin əks olunduğu fotolar da böyük maraq doğurur. Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün 420 yerlik böyük konfrans zalı yaradılıb. Mərkəzdə kompyuter və digər ən müasir avadanlıqla təchiz olunan xidməti otaqlar var. Müxtəlif təyinatlı bölmələrdən ibarət olan mərkəzdə sərgi zalı, xalçaçılıq dərnəyi, 40 nəfərlik iclas zalı, smart sinif, rəsm və foto studiyaları, elektron kitabxana, kompyuter, rəqs, intellektual oyun dərnəkləri fəaliyyət göstərəcək. Son illər respublikamızda fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlər də keçirilir. Sumqayıtdakı Heydər Əliyev Mərkəzində də bu məqsədlə müvafiq şərait yaradılıb.




# GƏNCƏ ŞƏHƏRİ

Gəncə şəhəri Heydər Əliyev Mərkəzinin tikintisinə 2012-ci ildən başlanılıb və 2014-cü il yanvarın 21-də cənab Prezident İlham Əliyevin iştirakı ilə açılışı olub.

Mərkəz perimetr boyunca səkkizbucaqlı sütunlarla əhatə olunub. Mərkəzdə Azərbaycanın xəritəsini əks etdirən çil-çıraq quraşdırılıb. Sahəsi 450 ha olan Gəncə Heydər Əliyev park-komplek-sində yerləşən 24 metr hündürlüyü olan Heydər Əliyev Mərkəzi 4 mərtəbədən ibarətdir. Mərkəzin I mərtəbəsində Ümum-milli liderin keçdiyi həyat yolunu və çoxşaxəli fəaliyyətini dolğun əks etdirən xatirə muzeyi yerləşir. Ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və Azərbaycan Respublikasının Prezidenti kimi 1993-2003-cü illərdə həyata keçirdiyi böyük işlər, Azərbaycanın rifahı, gözəl gələcəyi naminə apardığı düşünülmüş siyasət, ölkəmizin hərtərəfli sosial-iqtisadi inkişafına yol açan layihələr, ordu quruculuğu, xarici siyasət, mədəniyyət və digər sahələrə dair maraqlı fotolar, müxtəlif sənədlər, o dövrlərə aid kitablar, qəzetlər və digər materiallara muzeydə geniş yer verilib. Burada ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinə müxtəlif illərdə tarixi səfərlərini əks etdirən kitablar və qəzetlər də nümayiş etdirilir.

Muzeydə Gəncənin son illərdə keçdiyi əsaslı sosial-iqtisadi inkişaf yolu, Prezident cənab İlham Əliyevin Gəncəyə göstərdiyi diqqət və qayğının bariz nümunələrinə də geniş yer ayrılıb. Ekspozisiyada informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da peşəkarlıqla istifadə olunması diqqəti cəlb edir.

III mərtəbəsində video-konfrans salonu və hər cür təchizatı olan konfrans zalı mövcuddur. Mərkəzin konfrans zalında şəhərin ictimai-siyasi həyatında baş verən mühüm hadisələr, beynəlxalq və əlamətdar günlərlə bağlı tədbirlər yüksək səviyyədə həyata keçirilir.

## YARDIMLI RAYONU




4 sentyabr 2013-cü ildə açılışında cənab Prezident İlham Əliyevin də iştirak etdiyi Heydər Əliyev Mərkəzində Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən çoxlu fotoşəkil, kitab və jurnallar, video-disklər toplanmışdır. Mərkəzdə Heydər Əliyev Muzeyi, intellektual oyun otaqları, linqafon kabineti, rəsm, foto, kompyüter studiyaları, xalq sənətkarlıq və ədəbiyyat dərnəkləri, konfrans zalı, tədris otağı, "3D kinozalı", "virtual sinif" fəaliyyət göstərir. Hazırda Heydər Əliyev Mərkəzində bu avadanlıqlardan istifadə olunması üçün müasir və savadlı gənclərdən ibarət kollektiv formalaşdırılmışdır. Heydər Əliyev mərkəzinə hər ay 2000 nəfərdən çox insan ziyarət edir. Mərkəzdə "Heydər Əliyev və Azərbaycan mədəniyyəti", "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" və "Gənc Heydərçilər" dərnəkləri fəaliyyət göstərir.

## ŞƏMKİR RAYONU



Şəmkir rayonu Heydər Əliyev Mərkəzinin yerləşdiyi parkın ümumi sahəsi 14 hektardır. Ərazidə müasir tipli 7 fəvvarə, uzunluğu 742 metr olan açıq su kanalları və onların üzərində tunel tipli 10 keçid-körpü yaradılmışdır. Burada, həmçinin süni göl inşa edilmişdir. Parkda həmçinin 20 minədək müxtəlif növ dekorativ ağaclar, güllər əkilmiş, yaşıllıq salınmışdır. Parkın ərazisi əhalinin istirahətinin səmərəli təşkili üçün yüksək səviyyədə hazırlanmışdır.

Mərkəzin inşasına 2012-ci ilin mayında başlanılmışdır. Qeyri-adi, müasir orijinal layihə əsasında inşa olunan Mərkəzin binası dördmərtəbəlidir. Binanın foyesində ümummilli lider Heydər Əliyevin abidəsi qoyulmuşdur. Mərkəzdə quraşdırılan monitorlarda 6 dildə Ulu Öndərin həyat və fəaliyyətinin ayrı-ayrı məqamlarını əks etdirən videoçarxlar, eləcə də dahi rəhbərin həyata keçirdiyi irimiqyaslı layihələr haqqında məlumatlar nümayiş etdirilir.

Mərkəzdə qalereya, 3D kinozalı, kitabxana, bar, tərcümə otağı və mühazirə zalı fəaliyyət göstərir. Kitabxanada ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev haqqında kitablar, elektron vəsaitlər yer almışdır. Mərkəzə

gələnlər elektron kitabxananın virtual otağının xidmətlərindən də istifadə edirlər. Mərkəzin ikinci mərtəbəsində Ulu Öndərin müxtəlif illərdə rəhbər vəzifələrdə çalışdığı zaman kabinetlərini sərgiləyən muzey fəaliyyət göstərir. Burada ümummilli lider Heydər Əliyevin şəxsi arxivindən götürülmüş eksponatlar da nümayiş etdirilir. Mərkəzdə, həmçinin Ulu Öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar sərgilənir. Burada böyük akt zalı da vardır.

## TOVUZ RAYONU




Tovuz rayonundakı öz görkəmi ilə şəhərin mərkəzinə xüsusi gözəllik verən Heydər Əliyev Mərkəzi 2007-ci ilin sonlarından böyük bir əmək qüvvəsi yüksək memarlıq üslubu ilə muzeyin tikintisinə başlanıldı və 2008-ci ilin sentyabr ayında istifadəyə verildi. Tovuz rayonu Heydər Əliyev Mərkəzinin açılışı 24 sentyabr 2008-ci ildə olmuşdur.

Ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi baxımından böyük əhəmiyyəti olan Mərkəzdə ümummilli liderin həyatının çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, fotoşəkillər, tarixi sənədlər və eksponantlar, o cümlədən müxtəlif illərdə Tovuz rayonuna ta rixi səfərlərinə dair fotolar nümayiş olunur.

Mərkəzin birinci mərtəbəsində Ulu Öndərin qranitdən yonulmuş büst kompleksi, Heydər Əliyevin müstəqilliyimiz, dövlətçiliyimiz haqqında söylədiyi kəlamlardan ibarət lövhələr və ümummilli liderimizin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən qısa materialdan ibarət lövhə yerləşir.

Mərkəzin ikinci mərtəbəsi ekspozisiya zalı, kiçik konfrans zalı və kitabxanadan ibarətdir. Kitabxanada Heydər Əliyevə və bu siyasi kursun davamçısı İlham Əliyevə həsr olunan 370 adda 694 kitab, jurnallar və müxtəlif nəşrlər, o cümlədən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının sərəncamı ilə latın qrafikası ilə yenidən nəşr olunan 300 nüsxə kitab vardır. Tovuz rayon Heydər Əliyev Mərkəzində 978 eksponant (sənədlərin surəti, fotostendlər, disk və 330 adda 575 kitab və s.) saxlanılır. Yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədi ilə mərkəzdə komputer, dil kursları təşkil olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin daha dərindən təbliğ etmək məqsədi ilə mərkəzin zalında ulu öndərlə bağlı dərslər keçirilir, filmlər nümayiş olunur. Mərkəzdə ulu öndərin irsini, həyat və fəaliyyətini özündə əks etdirən 10 disk vardır. Mərkəzdə ümummilli liderin xarici ölkələrə və ölkəmizin regionlarında keçiridiyi görüşü əks etdirən 13 fotostend yaradılmışdır.

## QAX RAYONU




Qax rayon Heydər Əliyev Mərkəzin inşasına 2011-ci ilin noyabrında başlanmışdır. Yerli inşaat materiallarının istifadə edildiyi tikinti işləri rayonun daxili imkanları hesabına həyata keçirilmişdir. Foyedə Ümum-milli lider Heydər Əliyevin möhtəşəm abidəsi və məlumat-informasiya köşkü vardır. Ümumi sahəsi 670 kvadratmetr olan dörd hissəyə bölünən əsas zal, 600 nəfərin iştirakı ilə konfrans keçirməyə imkan verir. Zalın yan divarları səkkizguşəli ornamentli şüşələrlə örtülmüş, xüsusi ekranlar və tablolarla Ümummilli liderin həyat və fəaliyyətini əks etdirən fraqmentlərlə işıqlandırılmışdır. Zalın bir hissəsi 8 qatlı xüsusi elektron pərdə ilə kəsilərək kinozala çevrilmişdir. Burada Azərbay-canın müasir tarixini, iqtisadi və sosial inkişafını əks etdirən filmlər nümayiş olunur.

Mərkəzdə xoreoqrafiya, milli və bal rəqsləri, sənət dərnəkləri ilə yanaşı ingilis, yapon və rus dilləri sinifləri də fəaliyyət göstərir. Mərkəzdə internet kafe, elektron kitabxana, virtual otaqlar da yüksək standartlara cavab verir.

Mərkəzdə, həmçinin Respublika Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, mərkəzi icra orqanları rəhbərləri və nazirlərin yerlərdə vətəndaşların qəbulu ilə bağlı görüşlər, əlamətdar və tarixi günlərə həsr olunmuş tədbirlər, respublika səviyyəli seminar- treninqlər və maarifləndirici tədbirlərin keçirilməsi təmin olunur.

Qax rayon İcra Hakimiyyəti tərəfindən sifariş edilmiş Heydər Əliyev Mərkəzinin layihəsi fiziki şəxs Nadir Qasımova aiddir. İç dizayn işləri "Erginoğlu və Calıshlar" şirkəti (Türkiyə), əsas dəhliz və sərgi zalının dizaynı ZED Consulting (İspaniya) şirkəti, podratçı təşkilat "Əfqan" firmasına məxsusdur. Layihə, dizayn, tikinti və təqdimetmə üzrə koordinasiya edən şirkət Advisorscodur.



## XAÇMAZ RAYONU

Xaçmaz rayon Heydər Əliyev Mərkəzi Nəriman Nərimanov küçəsi 72 A-da, Heydər Əliyev parkının yaxınlığında yerləşir. Burada ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi müxtəlif dövrləri əhatə edən foto-şəkillər, sənədlərin surətləri, həmçinin ailəsi ilə bərabər həyatının müxtəlif dövrlərini əhatə edən şəkillər nümayiş olunur.

Mərkəz 2005-ci ildə muzey kimi fəaliyyət göstərib, 2010-cu ildə isə mərkəz əsaslı şəkildə yenidən qurulub. Onun yeni binası 2015-ci ildə inşa olunmaqla fəaliyyəti 8 sentyabr 2016-cı ildə başlamışdır.

Mərkəzin yeni binası müasir və qədim şərq memarlığı üslubunda inşa olunaraq iki mərtəbədən və bir neçə şöbədən ibarətdir. Birinci mərtəbədə sərgi zalı, xalçaçılıq dərnəyi, 300 nəfərlik kino-konsert zalı var. İkinci mərtəbədə isə bir sənət studiyası, fotostudiya, elektron kitabxana, rəqs və intellektual oyunlar dərnəyi mövcuddur.

Hal-hazırda mərkəzin tərkibində olan muzeyin fondunda ümummilli lider Heydər Əliyevin büstü, 94 foto-şəkil, 25 sənəd, 775 eksponat saxlanılır ki, bunlardan 120-si ekspozisiya sərgi salonunda nümayiş etdirilir. Mərkəzdə muzey eksponatlarının zənginləşdirilməsi məqsədilə "Tədqiqat" qrupu fəaliyyət göstərir.

Xaçmaz rayonunda mərkəzin baş binasından başqa, daha iki filialı da fəaliyyət göstərir. Belə ki, 140 kv m 2 sahəsi olan Xudat şəhər Heydər Əliyev muzeyi 2006 - cı ilin may ayının 10 - da, 120 kv m2 sahəsi olan Yalama kənd Heydər Əliyev muzeyi 2008 - ci ilin may ayının 10 - da yaradılaraq istifadəyə verilmişdir.

## ASTARA RAYONU




Astara rayon Azərbaycan küçəsində yerləşən orijinal memarlıq üslubunda tikilən Heydər Əliyev Mərkəzinin inşasına 2011-ci ildə başlanmış, həmin ilin aprelin 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Astara səfəri zamanı açılışı olmuşdur. Prezident Mərkəzin "Fəxri qonaq-

lar" kitabına ürək sözlərini yazmışdır.



Mərkəz 2008-ci ilin iyulundan 2012-ci ilin fevralına qədər H.Əliyev muzeyi kimi fəaliyyət göstərmişdir. Muzeylərin fəaliyyətinin genişlənməsi ilə əlaqədar olaraq Heydər Əliyev muzeyi 2012-ci ilin fevralından Mərkəz adlandırılır.

İkimərtəbəli binanın girişində Ulu Öndərin büstü qoyulmuşdur. Mərkəzin birinci mərtəbəsində ümummilli Liderin mənalı həyatını və zəngin siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotoşəkillərin və məlumatların yer aldığı tablolar, monitor vardır. Mərkəzdə ümummilli lider Heydər Əliyevin fəaliyyətinə həsr olunan bölmələrdə ulu öndərin uşaqlıq və gənclik dövrlərini, 1969-1982-ci illərdə respublikamızın sosial-iqtisadi inkişafı ilə bağlı gördüyü işləri, 1993-cü ildə xalqımızın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizin ictimai-siyasi, sosial və mədəni həyatındakı quruculuq işlərini əks etdirən 76 fotoşəkil, 35 sənəd toplanmışdır. Qiymətli eksponatlar arasında ümummilli Liderin respublikamıza rəhbərlik etdiyi müxtəlif illərdə geniş ictimaiyyətin nümayəndələri əmək adamları ilə görüşlərini eks etdirən fotolar nümayiş olunur. Mərkəzdə Ulu Öndərin Astaraya səfərləri zamanı görüşlərinə aid fotolar ayrıca guşədə yer alaraq mərkəzin ekspozisiyasını bəzəyir.

Heydər Əliyev mərkəzinin ikinci mərtəbəsində şahmat, təsviri sənət, dekorativ tətbiqi sənət studiyaları və elektron kitabxana fəaliyyət göstərir. Elektron kitabxananın fondunda 3500 kitab toplanmışdır. Kitabxanada " Avropa kitabxanaları" elektron kataloqdan 48 ölkənin toplu kataloqu vasitəsilə axtarış aparmaq mümkündür. Milli kitabxananın saytı vasitəsilə 21 xarici ölkə kitabxanaları ilə əlaqələr mövcüddur.



Dekorativ tətbiqi sənət studiyasında təşkil olumuş kurslarda miniatür xalçalar toxunur və rayonda keçirilən sərgilərdə nümayiş olunur. Bu studiyada gün ərzində 20-30 gənc bu qədim sənətə yiyələnmək üçün kurs keçirlər. Mərkəzdə fəaliyyət göstərən bu studiya Astarada xalçaçılıq sənətinin inkişafina xidmət edir.

Şahmat studiyasında uşaqlar həm şahmat, həm də dama ilə məşğul olurlar. Burada məşğələlərlə yanaşı ulu öndərin ad günü, Qurtuluş günü və sair bayramlar münasibətilə yarışlar, turnirlər keçirilir.

Gənclərin rəssamlıq ilə məşğul olmaları üçün mərkəzdə təsviri sənət studiyası da fəaliyyət göstərir. Gün ərzində 15-20 gənc təsviri sənətlə məşğul olur. Onların əl işləri, rəsm əsərləri mərkəzdə və rayonda keçirilən sərgi və tədbirlərdə nümayiş

olunur. Heydər Əliyev Mərkəzi muzey kimi rəsmi fəaliyyətə başladığı gündən bu günə kimi mütəmadi olaraq rayon və kənd məktəblərinin, Pedaqoji Kollecin, Uşaq bağçalarının, İdarə və müəssisə təşkilatlarının cədvəl üzrə muzeyə ekspozisiyasını təşkil edir. Bundan başqa hər gün onlarla fərdi gəliş qeydə alınır ki, bu da rayon sakinlərinin və gələn qonaqların ulu öndərə olan sonsuz məhəbbətini təzahürüdür.

**Telefon:** (025) 22-5-24-49 / (025) 22-5-44-01
**Mobil:** (055) 623-64-81 / (051) 326-68-60
**Mail:** heyderaliyevmerkezi@astara-ih.gov.az

## Mingəçevir şəhəri



Mingəçevir şəhər Heydər Əliyev Mərkəzinin açılışı ölkə rəhbəri Cənab Prezidentimiz İlham Əliyevin Mingəçevir şəhərinə 16 aprel 2013- cü il tarixli səfəri zamanı baş tutmuşdur. Üç mərtəbədən ibarət mərkəzin yaradılmasında məqsəd Ulu Öndərin həyat və fəaliyyətinin, zəngin dövlətçilik irsinin öyrənilməsidir. Muzeydə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə əks etdirən fotolar, tarixi sənədlər, kitablar nümaiş olunur. Ümummilli Liderin həyatının uşaqlıq, gənclik və tələbəlik illəri, həmçinin sovet və müstəqillik dövrünə aid müxtəlif fotoları maraqla qarşılanır. Bu fotolarda Ulu Öndərin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərliyinin müxtəlif dövrləri əks olunub. Bundan başqa, Mərkəzdə Ümummilli Liderlə bağlı disklər, sənədlər və digər maraqlı eksponatlar sərgilənir. Heydər Əliyevin uğurlu həyat yolunu əks etdirən ekspozisiya zalı Maddi-məhsul mühafizəsində 503 əşya var: 192 ədəd şəkil, 48 ədəd sənəd 261 ədəd kitab, 22 sənəd, 93 ədəd şəkil var, bunlardan 32 ədədi 1-ci mərtəbədə, 61-i 2-ci mərtəbədə, bunlardan 26-ı Cənab Prezidentimiz İlham Əliyevin Mingəçevirə səfərləri ilə bağlıdır.

Mərkəzdə kurslar və dərnəklər fəaliyyət göstərir. Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin də əsas tədbirləri məhz Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində təşkil olunur.

Mərkəzin 1-ci mərtəbəsində Heydər Əliyev Muzeyi, 570 nəfərlik Akt zalı və s. yardımçı otaqlar yerləşir.

Mərkəzin 2-ci mərtəbəsində Kitabxana, Konfrans zalı, Virtual sinif otaqları, Rəsm dərnəyi fəaliyyət göstərir. 3-cü mərtəbədə isə Rəqs Studiyası və Yaradıcılıq Studiyası və İnternet kafe yerləşir.

# Quba rayonu

25 iyul 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikasının I vitse prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə Qubada Heydər Əliyev Muzeyi (Mərkəzi) fəaliyyətə başlamışdır.



Muzeyin Ulu Öndərin həyat və fəaliyyətinin, zəngin dövlətçilik və azərbaycançılıq irsinin öyrədilməsi sahəsindəki fəaliyyəti və qubalıların, xüsusilə gənclərin Ulu Öndərin irsinə artan marağı nəzərə alınaraq 2011-ci ildə Heydər Əliyev adına mədəniyyət və istirahət parkında möhtəşəm və yaraşıqlı Heydər Əliyev Mərkəzi istifadəyə verilmişdir. Mərkəzin qarşısında xalq rəssamı, akademik Ömər Eldarovun müəllifi olduğu Ulu Öndər Heydər Əliyevin möhtəşəm abidəsi ucaldılmışdır.

Milli memarlıq elementlərindən istifadə olunmaqla müasir tikinti texnologiyalarına uyğun inşa olunan dördmərtəbəli muzeydə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən muzey fəaliyyət göstərir. Burada Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu illərdə ölkəmizin müxtəlif bölgələrinə səfərləri, o cümlədən Quba rayon ictimaiyyəti ilə görüşlərini əks etdirən fotoguşələr yaradılmışdır. Ümummilli Liderin irsinin gənc nəsillərə çatdırılması üçün mərkəzdə virtual tədris sinifləri, üç konfrans zalı, kompyuter mərkəzi, kitabxana vardır. Bundan əlavə, mərkəzdə xarici dillər mərkəzi, 3D kinozalı, ədəbiyyat dərnəyi, kulinariya məktəbi, heykəltəraşlıq, xalça və rəsm studiyaları, fotostudiya da yerləşir. Mərkəzdə yeməkxana, mətbəx, milli rəqs studiyası da yaradılmışdır.

# Salyan rayonu



Salyan rayon Heydər Əliyev Muzeyi 10 avqust 2006-cı ildə cənab Prezidentimiz İlhamƏliyevin və Mehriban Əliyevanın iştirakı ilə açılıb istifadəyə verilmişdir. Muzeyin yaranmasında məqsəd Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini tədqiq etmək, öyrənmək və ictimaiyyətə çatdırmaqdır. İllər ərzində muzey fəaliyyət dairəsini genişləndirərək, öz nəzdində müxtəlif dərnəklər, kitabxanalar və s. şəbəkələrin yaradılmasına nail olmuşdur.

Heydər Əliyev muzeylərinin mahiyyət etibarı ilə mərkəz kimi fəaliyyət göstərdiyini, onların regionlarda ictimai-siyasi və mədəni mərkəzlər kimi mühüm rol oynadığını nəzərə alaraq, habelə yerlərdən daxil olan çoxsaylı müraciətlərə əsasən Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin müvafiq əmri ilə Heydər Əliyev Muzeyləri mərkəz adlandırılmışdır.

Salyan rayonunda Heydər Əliyev Mərkəzi 4 sentyabr 2013-cü ildə cənab prezident İlham Əliyevin iştirakı ilə açılıb, istifadəyə verilib. Mərkəzin yaradılmasında məqsəd Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətini tədqiq etmək, öyrənmək və ictimaiyyətə çatdırmaqdır. Mərkəzin ümumi sahəsi 1479 km2 iki ekspozisiya zalının sahəsi isə 733 km2-dir. Mərkəzdə 497 eksponat nümayiş olunur. Eksponatlar Ümummilli Liderin həyat və fəaliyyətini ayrı-ayrı dövrlərini özündə əks etdirən 18 mərhələ üzrə, 9 bölmədən ibarətdir. Eyni zamanda mərkəzdə Heydər Əliyev haqqında kitablar, jurnallar, sənədlər videolentlər saxlanılır. O cümlədən ekspozisiya zalında Ulu Öndər Heydər Əliyevin büstü nümayiş olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına uyğun olaraq Salyan rayon Heydər Əliyev Mərkəzində gənc ailələrin nikah mərasimləri keçirilir.

# Siyəzən rayonu



3 mərtəbədən və 14 otaqdan ibarət olan Siyəzən rayon Heydər Əliyev Mərkəzinin müasir orijinal layihə əsasında inşasına 2013-cü ilin yanvar ayında başlanmış və iyul ayında başa çatdırılmışdır. Ümumi sahəsi 1200 m2 olan Mərkəzdə dünya şöhrətli siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitablar, fotolar, fəxri diplomlar və digər sənədlər sərgilənir. Fotolarda Ulu Öndərin uşaqlıq, yeniyetməlik, tələbəlik illəri, Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi, Azərbaycan Partiyasının birinci katibi olduğu dövrlərdə Siyəzən rayonuna səfərləri əks olunmuşdur. Mərkəzdə, həmçinin Ümummilli Lider Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, müstəqil Azərbaycan Respublikasının Prezidenti olduğu dövrlərdə Siyəzənə səfərlərini əks etdirən fotolar yer almışdır.

Binanın I mərtəbəsində Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdiren foto və sənədlərdən ibarətdir. Mərkəzdə ümumilikdə 449 eksponat vardır. Bunlardan Heydər Əliyevin müxtəlif dövürlərdə çəkdirdiyi 71 ədəd foto, 76 ədəd sənəd, 34 ədəd yağlı boya ilə cəkilmiş rəsm əsərləri, 1 büst və 267 kitabdan ibarətdir. Binanın I mərtəbəsində həmçinin, xalçaçılıq ənənələrinin yaşadılmasında böyük töhfələr verərək bu sənətin qədimliyini, dəyərini qoruyub saxlanmasına xidmətən göstərən xalçaçılıq dərnəyi fəaliyyət göstərir. Mərkəzin ikinci mərtəbəsində isə konfrans zalı, dizayn və nikah otağı, sərgi salonu vardır. Rəssamlıq dərnəyində məşğul olan şagirdlərin tez-tez rəsm sərgiləri təşkil olunacaq. Konfrans zalınada müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait təşkil edilib.

Mərkəzin III mərtəbəsində müasir internet klub, kitabxana və xarici dil öyrədən kurslar yaradılmışdır. Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, dövlətçiliyimizin inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər internet vasitəsi ilə Mərkəzə gələn qonaqlara çatdırılır.

2009-cu il mart ayının 10-dan Azərbaycanın sabiq prezidenti Heydər Əliyevin adını daşıyan muzey 2012-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əmri ilə Heydər Əliyev Mərkəzi adını almışdır.

# HEYDƏR ƏLİYEV ADINA MUZEYLƏR

## Naxçıvan MR

Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 18 fevral 1999-cu il tarixli sərəncamına əsasən yaradılmış və 10 may 1999-cu ildən etibarən fəaliyyətə başlamışdır. Muzeydə ümummilli lider Heydər Əliyevin ailəsinə, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər nümayiş etdirilir. Həmçinin Naxçıvan MR Ali Məclisinin sədri (1991-1993) işlədiyi dövrdə gördüyü işlər, həyata keçirdiyi tədbirlər, qəbul etdiyi mühüm əhəmiyyətli qərarlar, sərəncamlar, sənədlər, fotolar, filmlər, albomlar öz əksini tapmışdır.



Habelə muzeydə Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əməkdaşlıq sahəsində imzaladığı müqavilələrin surətləri, Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri toplanmışdır. Burada "Xalqımla həmrəyəm", "Qayıdış", "Naxçıvan yaşayır və döyüşür" bölmələri təşkil olunmuşdur. Muzeyin fondunda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən 4807 eksponat toplanmışdır. Həmçinin muzeyin kitabxanasında Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən jurnal, albom və kitablar saxlanılır.

## Gəncə şəhəri



Gəncə şəhərində yerləşən Heydər Əliyev Mərkəzinin I mərtəbəsində Ümumilli liderin həyat yolunu və çoxşaxəli fəaliyyətini əks etdirən xatirə muzeyi yerləşir. Muzeydə Heydər Əliyevin uşaqlıq və gənclik illəri ilə yanaşı, onun zəngin fəaliyyətinin bütün dövrləri əks olunmuşdur. Ulu öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri və Azərbaycan Respublikasının Prezidenti kimi 1993-2003-cü illərdə həyata keçirdiyi layihələr, o cümlədən ordu quruculuğu, xarici siyasət, mədəniyyət və digər sahələrə dair maraqlı

fotolar, müxtəlif sənədlər, o dövrlərə aid kitablar, qəzetlər və digər materiallara muzeydə geniş yer verilib. Burada ümummilli lider Heydər Əliyevin Gəncə şəhərinə müxtəlif illərdə tarixi səfərlərini əks etdirən kitablar və qəzetlər də nümayiş etdirilir. Ümumilikdə muzeydə Ulu Öndərin həyat və fəaliyyətinin bütün mərhələləri əks olunub.

## Göyçay rayonu

Göyçay rayon Heydər Əliyev Muzeyi 2007-ci ildən fəaliyyətə başlamışdır. Heydər Əliyev Muzeyi Mədəniyyət və Turizm Nazirinin 24.01.2012-ci il tarixli 19 nömrəli əmrinə əsasən Heydər Əliyev Mərkəzi adlandırılmışdır. Göyçay rayon Heydər Əliyev Mərkəzi 2009-cu ildə tikilib, 2010-cu il fevralın 12-də Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin iştirakı ilə rəsmi açılışı olmuşdur. Mərkəz iki mərtəbədən ibarət olaraq 310 nəfərlik iclas zalı, 1 konfrans zalı, 12 inzibati otaq və yardımçı otaqlar mövcuddur. Mərkəzdə 518 eksponat cəmlənmişdir. Bunlardan 302-si fotoşəkil, 182-si kitab, 32-si sənəd, 2-si isə heykəltaraşlıq nümunəsidir. Mərkəzdə rəsm, tarix, ədəbiyyat, xarici dil öyrənmə, şahmat dərnəkləri, kitabxana fəaliyyət göstərir. Həmçinin multimedia, virtual siniflər mövcuddur. Burada Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən 215 ədəd eksponat sərgilənir.

Heydər Əliyev mərkəzinin qarşısında isə uzunluğu 40 m, hündürlüyü 6 m olan şəlalə-fəvvarə kompleksi yaradılmışdır.

Muzey-kompleks rayonun daxili imkanları hesabına tikilib. “Göyçay Təmir-Tikinti” MMC tərəfindən milli arxitektura üslubunda inşa edilmişdir.

## Qaradağ rayonu



Qaradağ rayonu Heydər Əliyev Muzeyi — Qaradağ rayonunda yerləşən, 2006-ci ilin aprel ayında tikintisinə başlanılmış, tərtibat, tamamlanma işlərinin 2007-ci ilin fevral ayında başa çatdırıldığı H.Əliyev adına muzey. Muzeyin açılışı 14 iyun 2008-ci ildə baş tutmuşdur.

Respublikanın müxtəlif regionlarında və iri şəhərlərində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən, Azərbaycanın müasir tarixindən və zəngin mədəni irsindən bəhs edən, müasir avadanlıq və zəruri ədəbiyyatla təchiz edilmiş muzey və muzey mərkəzləri yaradılması Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilib.

Mərkəzlərdə yaradılmış müxtəlif fotostendlər, kinozallarda nümayiş etdirilən videosüjetlər Heydər Əliyevin siyasi, dövlətçilik fəaliyyətinin öyrənilməsi və gələcək nəsillərə çatdırılmasında müstəsna rol oynayır. Bu muzey mərkəzlərində həmçinin gənclər üçün şahmat, kompyuter, xalçaçılıq, təsviri və tətbiqi incəsənət, heykəltəraşlıq dərnəkləri fəaliyyət göstərir.

Muzeyin yaradılmasında əsas məqsəd sabiq ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, zəngin irsini və çoxşaxəli siyasətini gənc nəsillərə dolğun şəkildə çatdırmaq və təbliğ etməkdir. Muzeyin nəzdində 19 nəfərdən ibarət tədqiqat qrupu yaradılmışdır. Bu qrupun başlıca vəzifəsi Qaradağ rayonu ilə əlaqədar olaraq Heydər Əliyevin tarixi fəaliyyətini daha geniş, əhatəli şəkildə araşdırmaqdan ibarətdir.

Muzey 3 otaqdan ibarətdir. H.Əliyev adına muzeydə 195 ədəd fotoşəkil, 94 ədəd kitab, 9 ədəd Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən disk var. Muzeydə həmçinin Heydər Əliyevin bürünc heykəli vardır. Bu heykəlin müəllifi azərbaycanlı heykəltəraş Natiq Əliyevdir.

# HEYDƏR ƏLİYEV ADINA SARAYLAR

## Bakı şəhəri




Ümummilli liderin adını daşıyan saray paytaxtımızın memarlıq simasında xüsusi yeri olan möhtəşəm məkan, həm də ölkənin baş səhnəsi, əsas konsert salonu.

İllər boyu ictimai-siyasi, mədəni kütləvi tədbirlərə ev sahibliyi edən, Azərbaycan xalqının həyatında önəmli hadisələri, tədbirləri səhnəsindən geniş tamaşaçı kütləsinə çatdıran saray bu gün də qaynar həyatını yaşayır.

Saray istifadəyə veriləndən 1989-cu ilə qədər Respublikanın xalq artisti Kərim Kərimov, 1989-cu ildən 2020-ci ilə qədər Əməkdar Mədəniyyət İşçisi Fərhad Babayev, 2020-ci ildən 2022-ci ilə qədər Əməkdar artist Ramil Qasımov rəhbərlik edib. 2022-ci il 17 iyun tarixindən Heydər Əliyev Sarayının direktoru vəzifəsi müvəqqəti olaraq Faiq Mirzəyevə həvalə edilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 fevral 2007-ci il tarixli sərəncamına əsasən əsaslı təmirə dayandırılan Heydər Əliyev Sarayı aparılan təmir-bərpa işləri nəticəsində möhtəşəm mədəniyyət kompleksinə çevirildi.

Sarayının səhnəsində çıxış edən artistlərin şəkilləri, fotoarxivindən düzəldilmiş fotoqalereyaya daxil olaraq, keçirilmiş konsertlər haqda daha ətraflı məlumat almaq mümkündür. Bu fotoşəkillərin çoxu eksklüzivdir və ilk dəfə nümayiş etdirilir.

Sarayın adı ilk öncə Lenin Sarayı, sonra Respublika Sarayı, 10 mart 2004-cü ildən isə Heydər Əliyev Sarayı olub.

Bütün texniki avadanlıq – səhnənin qalxıb-enən döşəməsi, hər iki istiqamətdə hərəkət edən transpartör lenti, konsert proqramının daha yüksək səviyyədə keçirilməsi üçün ABŞ, Kanada və Yaponiyadan gətirilmiş müasir, dünya standartlarına uyğun işıq və səs texnikası qurulmuşdur.

## Naxçıvan MR



Heydər Əliyev Sarayı Naxçıvan Muxtar Respublikasının əsas mədəniyyət ocaqlarından biridir. 1984-cü ildə tikilmiş Heydər Əliyev Sarayının binası əsaslı yenidənqurmadan sonra 2009-cu ildə istifadəyə verilmişdir. Uzunluğu 110 metr, eni 25 metr olan sarayın binasında 586 kvadrat metrlik səhnə, 943 yerlik konsert və 276 yerlik konfrans salonları vardır. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi, Naxçıvan Dövlət Filarmoniyası, Rəsm Qalereyası və Film Fondu da sarayın binasında yerləşir.

## NAXÇIVAN ŞƏHƏRİNDƏKİ HEYDƏR ƏLİYEV UŞAQ VƏ GƏNCLƏR YARADICILIQ MƏRKƏZİ



Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq Gənclər Yaradıcılıq Mərkəzinin binası yenidən qurularaq martın 19-da, Novruz bayramı ərəfəsində istifadəyə verilmişdir.

Naxçıvan MR Ali Məclisinin keçmiş sədri Vasif Talıbov Azərbaycan Prezidentinin Sərəncamı ilə elan olunmuş 2009-cu il - Uşaq ilində istifadəyə verilən Heydər

Əliyev Uşaq Gənclər Yaradıcılıq Mərkəzinin yenidənqurmadan sonra açılışı münasibətilə müəllim və şagird kollektivini təbrik etmiş, yaradıcılıq uğurları arzulamışdır.

Açılışı bildirən rəmzi lent kəsilmiş, yeni binaya baxış keçirilmişdir.

Binada Heydər Əliyev Uşaq Gənclər Yaradıcılıq Mərkəzi, Naxçıvan Dövlət Uşaq Teatrı, Naxçıvan Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin mərkəzi kitabxanası və uşaq şöbəsi fəaliyyət göstərəcəkdir.

Tədbir iştirakçıları binanın ikinci mərtəbəsinin foyesində mərkəzin müxtəlif dərnək üzvlərinin əl işlərindən ibarət sərgiyə baxmışlar. Sərgidə Heydər Əliyev Muzeyinin, Hüseyn Cavid məqbərəsinin, Heydər Əliyev Uşaq Gənclər Yaradıcılıq Mərkəzinin, Şahmat Mərkəzinin, yaşayış binalarının maketləri, rəsm əsərləri, toxuculuq nümunələri nümayiş etdirilir.

Sonra "Əlvan çiçəklər" Mahnı və Rəqs Ansamblı maraqlı konsert proqramı ilə çıxış etmişdir. Konsert proqramında ansamblın üzvləri bəstəkarlardan Şəmsəddin Qasımovun "Gənc Heydərçilər", Tofiq Quliyevin "Əziz dost", Ramiz Mirişlinin "Naxçıvan", "Sən ürəyimsən", Əqidə Ələkbərovanın "Yaşa rəhbər" mahnılarını ifa etmişlər. Ansamblın vokal qrupunun ifasında səslənən xalq mahnılarından ibarət "Popuri", xor kollektivinin və rəqs qrupunun çıxışları alqışlarla qarşılanmışdır.

## HEYDƏR ƏLİYEVİN ADINI DAŞIYAN MƏSCİDLƏR

### Bakıda Heydər məscidi



Heydər məscidi Bakı şəhərinin Binəqədi rayonunda məscid. 2012-2014-cü illərdə tikilən məscid.

Məscid 26 dekabr 2014-cü ildə ictimaiyyətin istifadəsinə verilmişdir. Məscid 12.000 m² sahədə salınıb, daxili isə 4.200 m² sahəni əhatə edir. Məscidin fasadı Şirvan – Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənilmiş, hündürlüyü 95 metr olan 4 minarə inşa olunmuşdur. Məscidin 55 metr hündürlüyündə olan baş günbəzinin və 35 metr hündürlüyündə olan ikinci günbəzinin kənarlarına Quran ayələri yazılmışdır.



Qafqaz Müsəlmanları İdarəsi məscidə sünni təriqəti üzrə imam (Hafiz Abbasov) və şiə təriqəti üzrə axund (Rüfət Qarayev) təyin edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) axund və imam təyinatına baxmayaraq, "Heydər" məscidində dini icma yaradılmayacaq: "Bu məscid dini icma olmadan fəaliyyət göstərəcək. Bütün bunlar qanuna uyğundur. Çünki o məscid ayrıca bir kompleksdir və bir məscid-kompleks olaraq Bakı Şəhər İcra Hakimiyyətinin nəzdindədir. Bu baxımdan da buranın idarəçiliyi özəl formada həyata keçirilir. Ona görə də bu məscid digər məscidlərin idarəçiliyindəki qaydalarla deyil, kompleksin əsasnaməsini əsas götürülərək idarə olunacaq".

## Mərdəkanda "Heydər Cümə" məscidi



Mərdəkan qəsəbəsindəki "Heydər Cümə" məscidi Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulub.

1893-cü ildən fəaliyyət göstərən məsciddə ötən illər ərzində heç vaxt əsaslı təmir işləri aparılmayıb. 2012-ci ildə məsciddə yenidənqurma işlərinə başlanılıb. 2013-cü il dekabrın 31-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva əsaslı yenidənqurmadan sonra məscidin açılışında iştirak edib.



Əvvəllər bir mərtəbədən ibarət olan məscidin ikinci mərtəbəsi inşa edilib və eyni vaxtda 130 nəfərin ibadət etməsi üçün şərait yaradılıb. Məsciddə iki dəstəmazxana, kitabxana, mədrəsə, 180 nəfərlik mərasim zalı, müxtəlif yardımçı otaqlar yaradılıb, minarə tikilib.

## Naxçıvanda Heydər Məscidi



Həzrəti-Zəhra Məscidi – Naxçıvan şəhərinin Sarvanlar məhəlləsində ibadətgah və memarlıq ibadəsi. Xalq arasında "Heydər Məscidi" kimi tanınır. Məscidin heyətində qoyulmuş xatirə qraniti üzərindəki kitabədə onun tikilmə tarixi belə qeyd olunmuşdur: "Heydər Məscidi" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən (1991-1993) möhtərəm Heydər Əliyevlə İran İslam Respublikasının "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti ağayı Mohsen Rəfiq Dust arasında 24 avqust 1992 il tarixdə Tehran şəhərində imzalanmış protokola əsasən Ayətulla Xamenei hyəzrətlərinin və Zati-aliləri Heydər Əliyevin himayəsi ilə tikilmişdir. Ümumi sah. – 6000 m²-dir. Məscidin böyük ibadət salonu (3300 m²) günbəzlə örtülmüşdür; hücrələri var. Bu möhtəşəm abidənin layihəsində Şərq Memarlıq ənənələrindən istifadə edilmişdir.

Məscid binasının tikintisi, xaricə açılan dərin həcmli baştağ eyvanları, oyma bəzəkləri, şəbəkələri, xüsusilə minbərdə aparılmış bəzək işləri, həmçinin ümumi quruluşu memarlıq həllinə görə diqqəti cəlb edir. Bu müqəddəs ocaqda eyni vaxtda min nəfər dini ayinləri yerinə yetirə bilər. Burada müqəddəs Qurani-Kərim öyrədilir, islami dəyərlər təbliğ edilir. Məsciddə mədrəsə və kitabxana da fəaliyyət göstərir. Məscidin təntənəli açılış mərasimi 1999 il oktyabr 10-da olmuşdur.

Mərasimdə Azərb. Respublikasının keçmiş Prezidenti Ümummilli Lider Heydər Əliyev böyük nitq söyləmişdir.

## Şərur rayonu Heydər Məscidi



Heydər məscidi müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasında inşa edilən ilk məscidlərdən biridir. Məscid Şərur rayonunun Aşağı Aralıq kəndində yerləşir. Özünəməxsus memarlıq üslubuna malik olan iki mərtəbəli məscid 1996-cı ildə inşa olunmuşdur.

419 kvadratmetr sahəsi olan ərazidə yerləşən Şərq memarlıq elementlərini özündə əks etdirən, müasir üslubda inşa edilən məscidin ümumi sahəsi 155 kvadratmetrdir. Məscidin həyəti dini simvollar, nəbati və həndəsi naxışlarla

bəzədilmiş dəmir məhəccərlərlə əhatə olunmuşdur. Bu məscid Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şərəfinə “Heydər məscidi” adlandırılmışdır. Binanın günbəzində göy kaşılarla “HEYDƏR MƏSCİDİ” sözləri, əsas giriş qapısının baş tərəfində isə Qurani-Kərimdən ayələr yazılmış kitabə qoyulmuşdur.

Məscidin birinci mərtəbəsinin hündürlüyü beş metr, ikinci mərtəbəsinin hündürlüyü isə üç metrdir. Məscidin ümumi hündürlüyü on metrdir. Dörd sütunludur. Bir günbəzli məsciddə altmış qadın, yüz kişi olmaqla yüz altmış nəfər eyni vaxtda ibadət edə bilər. İki minarəli məscidin minarələrinin hündürlüyü on beş metrdir.

## Babək rayonu Heydər Məscidi



Müstəqillik dövründə Ümummilli lider Heydər Əliyevin şərəfinə inşa edilən məscidlərdən biri də Babək rayonunun Çeşməbasar kəndində yerləşir. 1996-cı ildə inşa edilən iki mərtəbəli məscidin birinci mərtəbəsinin hündürlüyü üç metr, ikinci mərtəbəsinin hündürlüyü isə 2,5 metrdir. Məscidin ümumi hündürlüyü altı metrdir. Ümumi sahəsi 72 kvadrat metr olan məscid dörd sütunludur. Divarlarının qalınlığı 70 santimetrdir. Məsciddə 120 nəfər eyni zamanda ibadət edə bilər. Girişi şimaldan olan məscid bir günbəzli və bir minarəlidir. Minarənin hündürlüyü on iki metrdir. Məscidin həyətində dini mərasimlərin keçirilməsi üçün əlavə zal inşa edilmişdir. Məscid 2015-ci ildə təmir olunmuşdur.

## Mingəçevirdə Heydər Məscidi



Məscid Mingəçevir şəhərinin mərkəzində yerləşir. İbadət evi 1998-ci ildə inşa olunub.

İbadətgah həyəti 4000 kvadrat metrdir və daş hasarla əhatə olunub. Həyətdə həmçinin hovuz da yerləşir. Məscidin qadınlar zalına girişi ayrıdır. Dəstəmazxanaya giriş isə ibadətgahın çöl tərəfindədir.

Məscidin bir günbəzi var və üzərində “Allah” adı həkk olunub. Günbəzin üstü ağ dəmir təbəqə ilə üzlənib. İbadət evinin dəmir borudan hazırlanmış qoşa minarəsi var. İbadət zalın döşəməsi mərmərdəndir. Məscidin ön hissəsində üç tağ üzərində dayanan eyvan yerləşir.

# HEYDƏR ƏLİYEV ADINA ORDEN VƏ MÜKAFATLAR

## "HEYDƏR ƏLİYEV" QIZIL MEDALI




Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu "Heydər Əliyev" qızıl medalını 2007-ci ildən türk və digər millətlərin dostluq və qardaşlıq əlaqələrinin möhkəmlənməsində böyük xidmətlərə, türkdilli dövlətlərin iqtisadi, sosial-siyasi və mədəni inkişafına sanballı töhfələr vermiş görkəmli şəxsiyyətlərə təqdim edir. İndiyə qədər Azərbaycan Prezidenti İlham Əliyev, görkəmli qırğız yazıçısı Çingiz Aytmatov, Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan, Çeçenistan Respublikasının başçısı Ramzan Kadırov "Heydər Əliyev" qızıl medalının laureatları olub.

## "HEYDƏR ƏLİYEV" ORDENİ




Azərbaycan Respublikasının "Heydər Əliyev" ordeni-nin təsis edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" 10 mart 2004-cü il tarixli, 38 nömrəli Fərmanı ilə tövsiyə olunmuşdur.

Orden 28 aprel 2005-ci il tarixindən Azərbaycan Respublikasının ən yüksək təltifidir. Həmin vaxta qədər isə Azərbaycan Respublikasının ən yüksək təltifi "İstiqlal" ordeni olmuşdur.

1. "Heydər Əliyev" ordeni Azərbaycan Respublikasının vətəndaşlarına aşağıdakı hallarda verilir:

1.1. Azərbaycanın tərəqqisinə, əzəmətinin və şöhrətinin artmasına töhfə verən müstəsna xidmətlərinə görə;

1.2. Vətənin müdafiəsində, Azərbaycanın dövlət mənafelərinin qorunmasında göstərilmiş mərdlik və şücaətə görə.

2. "Heydər Əliyev" ordeni Azərbaycan Respublikasının Prezidentinə onun statusuna görə verilir.

3. "Heydər Əliyev" ordeni əcnəbilərə aşağıdakı hallarda verilir:

3.1. Azərbaycan Respublikası qarşısında görkəmli xidmətlərinə görə;

3.2. Azərbaycançılıq ideyasının həyata keçirilməsində, dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə;

3.3. Azərbaycan Respublikası ilə digər dövlətlər arasında siyasi, iqtisadi, elmi və mədəni əlaqələrin qurulmasında və inkişaf etdirilməsində xüsusi xidmətlərinə görə.

4. "Heydər Əliyev" ordeninin qılınclı ulduzu və qılınclı zənciri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndində müəyyənləş-dirilmiş qaydada verilir.

5. "Heydər Əliyev" ordeninin ulduzu döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan əvvəl taxılır.

## "PLATİN" QƏLƏM MÜKAFATI




2013-cü ildən etibarən Azərbaycana layiqincə xidmət göstərən siyasi və dövlət xadimləri, tanınmış elm, mədəniyyət, incəsənət adamları üçün nəzərdə tutulan məhdud saylı platin qələm ulu öndər Heydər Əliyevin böyük regionun ümumi mənzərəsini dəyişməsi ilə nəticələnən fəaliyyətinə hörmət əlaməti olaraq hazırlanmışdır. Ümummilli lider Heydər Əliyevin daha çox heykəltəraşlıq təsvirinə bənzəyən portreti və “Mən fəxr edirəm ki, Azərbaycanlıyam!” məşhur ifadəsi məhz bu məqsədlə qələmin üzərinə yüksək sənətkarlıq və zövqlə əks etdirilmişdir. incəsənət əsərləri yaradanlar, dövlət və ictimai xadimlər, kolleksiyaçılar, tarixlə maraqlanan insanlar üçün nəzərdə tutulan mükafat yüksək beynəlxalq standartlara cavab verən mürəkkəblə yazan qələmdir. Əl işi olduğundan, hər bir qələm nadir sənətkarlıq nümunəsi və vahiddir.

## ÜMUMRUSİYA AZƏRBAYCAN KONQRESİ HEYDƏR ƏLİYEV ADINA MÜKAFAT

Ümumrusiya Azərbaycan Konqresi (ÜAK) Azərbaycan xalqının ümummilli liderinin anadan olmasının 89-cu ildönümünə həsr edilmiş Heydər Əliyev adına mükafat təsis edib.

Mükafat hər il Rusiya və Azərbaycan arasında dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafı və möhkəmlənməsinə əhəmiyyətli töhfə verən Rusiya Federasiyasının

görkəmli ictimai-siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinə təqdim edilir.

Ümumrusiya Azərbaycan Konqresi 2000-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dəstəyi ilə təsis olunub. Fəaliyyət göstərdiyi müddət ərzində ÜAK Rusiyada yaşayan azərbaycanlıların təşkilatlanması, onların hüquq və azadlıqlarının müdafiəsi, xalqımızın zəngin mədəni irsinin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına xidmət edən bir sıra uğurlu layihələr həyata keçirib

.

## YUNANISTANDA HEYDƏR ƏLİYEV ADINA MÜKAFAT

Azərbaycanın Yunanıstandakı səfirliyi əhalisinin sayına görə bu ölkənin üçüncü şəhəri sayılan Patra şəhəri Universitetinin rektorluğu ilə birlikdə həmin ali məktəbin yuxarı kurs tələbələri üçün Azərbaycanın və Azərbaycan-Yunanıstan münasibətlərinin öyrənilməsi sahəsində ən yaxşı elmi işə görə Heydər Əliyev adına mükafatını təsis etmişdir. 2012-ci ildətəsis olunan mükafat yunan tələbələrin Azərbaycanın tarixini, mədəniyyətini, daxili və xarici siyasətini, onun enerji strategiyasını, ikitərəfli Azərbaycan-Yunanıstan münasibətlərinin müxtəlif aspektlərini daha dərindən öyrənmələrinə kömək etmək məqsədi daşıyır.

## HEYDƏR ƏLİYEV ADINA BEYNƏLXALQ HAVA LİMANI




10 mart 2004-cü il tarixində hava limanı Azərbaycan Respublikasının üçüncü prezidenti Heydər Əliyevin şərəfinə yenidən adlandırılıb. Heydər Əliyev Beynəlxal Aeroportu, Azərbaycanın və Qafqazı n ən işlək hava limanıdır. Hava limanı "Azərbaycan Hava Yolları" və onun struktur bölməsi "Buta Airways" aşağıbüdcəli aviaşirkətinin baza aeroportudur, "Silk Way Airlines"ın isə yük daşıyıcısıdır.

## HEYDƏR ƏLİYEV ADINA BAKI-TBİLİSİ-CEYHAN NEFT BORU KƏMƏRİ

Bakı-Tbilisi-Ceyhanboruxətti Azərbaycan neftinin Xəzər dənizindən Türkiyənin Ceyhan limanına, oradan Aralıq dənizi vasitəsilə Avropa bazarlarına nəqli kəmərdir. Uzunluğu 1768 kilometrdir. Azərbaycandan (443 km), Gürcüstandan (249 km) və Türkiyədən (1076 km) keçir. Boru xəttinin diametri Azərbaycan və Türkiyə daxilində 42 düym (106,68 santimetr), Gürcüstanda isə 46 düymdür (116,84 santimetr). Türkiyədə Ceyhan Dəniz Terminalına doğru son hissəsində boru xəttinin diametri azalaraq 34 düyməyə (86,36 santimetr) enir.




1994-cü ilin sentyabr ayında Bakıda Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının istifadə edilməsi barədə "Əsrin müqaviləsi" adlanan müqavilə imzalandı.

Bakı-Tbilisi-Ceyhan boru xəttidən sonra Azərbaycanda və Qafqazda ən böyük layihə Bakı-Tbilisi-Qars dəmiryolu xətti dəmiryolu layihəsidir.

## HEYDƏR ƏLİYEV ADINA BAKI DƏRİN ÖZÜLLƏR ZAVODU



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturlarından biri. Zavodun təməli 1978-ci ildə qoyulmuşdur.

Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun təməli 1978-ci ildə qoyulmuşdur. 1984-cü ildə istismara verilən BDÖZ dənizin 200 metrədək dərinliyində quraşdırılmaq üçün dərin özüllər istehsal edən nəhəng sənaye müəssisəsidir.

Ümumi istehsal gücü ildə 60 000 ton metalkonstruksiya olmaqla, müxtəlif dərinliklərdən asılı olaraq ildə 2-3 dərin dəniz özülü yığmağa imkan verir.

1985-ci ildə quraşdırılmış ilk stasionar dəniz platforması hazırda Günəşli neft yatağında istismar olunur. Zavod 1986-cı ildə layihə gücünə çatdırılmışdır.

Zavodda ötən dövr ərzində 178 mertədək dərinlik üçün 12 dəniz platforması hazırlanmışdır. 1992-ci ildə ilk dəfə olaraq "Bp" şirkəti üçün Şimal dənizində

quraşdırılmaq məqsədilə boruların hazırlanması üzrə kontrakt BDÖZ-də uğurla həyata keçirilmişdir.



Zavodun mövcudluğu "Əsrin müqaviləsi"nin bağlanması üçün təməl yaratdı və bu da Azərbaycanın iqtisadi inkişafını bir çox illər öncədən müəyyənləşdirdi. "Əsrin müqaviləsi" imzalanmazdan əvvəl burada artıq dənizin 100-163 metrədək dərinliyindən neft və qaz çıxarmaq üçün 11 stasionar platforma quraşdırılmışdı. 1995-ci ildən başlayaraq BDÖZ beynəlxalq enerji bazarının nəhənglərindən olan "British Petroleum" (bp), "Petrofac", "McDermott", "Caspian Shipyard Company" LTD, "Star Gulf FZCO" şirkətləri ilə əməkdaşlığa başlayaraq iş keyfiyyətini yeni səviyyəyə qaldırdı.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandıqdan sonra Xəzər dənizinin Azərbaycan sektorunda həyata keçirilən bütün neft layihələrində BDÖZ fəal iştirak edir.

Prezident İlham Əliyevin 2004-cü il martın 10-da imzaladığı "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərmanı ilə BDÖZ-ə öz yaradıcısının - Ulu Öndərin adı verilib. Müəssisə bu adı şərəflə daşıyır.

## AZƏRBAYCAN RESPUBLİKASI MTN-nin HEYDƏR ƏLİYEV ADINA AKADEMİYASI

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası – ali və əlavə təhsil proqramlarını həyata keçirən, dövlət təhlükəsizlik orqanları üçün xüsusi ixtisaslı ali təhsilli zabit kadrlar hazırlayan, fundamental və tətbiqi elmi tədqiqatlar aparan xüsusi təyinatlı dövlət ali təhsil müəssisəsidir.

Akademiya Azərbaycan Respublikası Prezidentinin 1 dekabr 1998-ci il tarixli 37 nömrəli Sərəncamı ilə yaradılmışdır.

Müstəqil Azərbaycan Respublikasının mühüm dövlətçilik təsisatlarından olan təhlükəsizlik orqanları üçün xalqına və dövlətinə ləyaqətlə xidmət edən, onun təhlükəsizliyinin keşiyində dayanan, sədaqətli və vətənpərvər, yeni nəsil peşəkar və ixtisaslı kadrların hazırlanmasını həyata keçirən Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının yaradılması bilavasitə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Zəngin və mənalı həyat yolunun 25 ilini dövlət təhlükəsizlik orqan-larında xidmətə həsr etmiş Ulu öndərimiz hələ 1997-ci il martın 28-də təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş yığıncaqda çıxış edərkən bu orqanlarda xidmət edən kadrların rolundan, qarşısına qoyulan tələblərdən və onları səciyyələndirən amillərdən danışaraq yüksək ixtisaslı, peşəkar milli kadrların hazırlanması məqsədilə xüsusi təyinatlı ali təhsil müəssisəsinin yaradılmasının zəruri olduğunu qeyd etmişdi.





Ötən dövr Akademiya üçün yaddaşlardan silinməyəcək bır sıra tarixi hadisələrlə zəngin olmuşdur. Belə ki, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin 2005-ci il dekabr ayının 20-də imzaladığı Fərman ilə təhlükəsizlik orqanları üçün kadr hazırlığı sahəsində nailiyyətləri nəzərə alınaraq Akademiyaya Ümummilli Lider Heydər Əliyevin adı verilmişdir.

2006-cı il mart ayının 27-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Akademiyanı ziyarət etmiş, Ümummilli Lider Heydər Əliyevin möhtəşəm abidəsini, unikal məzmuna və nəfis tərtibata malik "Şöhrət" muzeyini açmış, şücaət rəmzi olan "Döyüş bayrağı"nı Akademiyaya şəxsən təqdim etmişdir.

2008-ci ilin dekabr ayında Akademiyanın yaradılmasının 10 illiyi, 2013-cü ilin dekabr ayında 15 illiyi, 2018-ci ilin dekabr ayında isə 20 illiyi təntənəli surətdə qeyd edilmişdir.

Akademiyanın respublikanın, habelə tərəfdaş ölkələrin xüsusi xidmət orqanlarının ali təhsil müəssisələri və beynəlxalq təşkilatlarla işgüzar əlaqələrə əsaslanan qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri qurulmuşdur.

# HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİ




1939-cu ilin noyabr ayında SSRİ xalq müdafiə komisarının əmri əsasında Qroznı şəhərində Qroznı Hərbi Piyada Məktəbinin yaradılması göstərişi oldu. Bu günkü Azərbaycan Ali Hərbi Məktəbi öz yaranma tarixini həmin andan davam etdirir.

Məktəb yarandığı ilk günlərdən böyük çətinliklərin öhdəsindən gəlmək məcburiyyətində olmuşdur. Xüsusi ilə bu çətinliklərin əsası maddi-texniki təminatla əlaqədar idi. Kursantların dərslərinin və müstəqil hazırlığının keçirilməsi üçün sinif və auditoriyalar çatışmırdı. Ataş poliqonu çox primitiv şəkildə quraşdırılmış və ataş hazırlığından çalışmaların yerinə yetirilməsini təmin etmirdi. Bütün bu çətinliklərə baxmayaraq 1 yanvar 1940-cı ildən məktəb tədris proqramını yerinə yetirməyə başladı.

Tədrisdə əsas diqqət hər bir kursantın hərbi texnikanı və taktikanı dərindən qavramasına, müasir silah növlərinin döyüş şəraitində bacarıqla istifadə edilməsinə yönəldilmişdir. Taktiki dərslər ilin fəsillərinə baxmayaraq, əksəriyyəti təlim meydanında, müxtəlif yerlərdə döyüş şəraitinə uyğun keçirilirdi.



1958-ci ilin ortalarında SSRİ Nazirlər Sovetinin qərarına əsasən hərbi məktəblər orta təhsil sistemindən ali təhsil sisteminə keçdilər. Həmin vaxtdan məktəbin adı dəyişilərək Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbi adlandı. 1 sentyabr 1958-ci ildə məktəb yeni tədris sisteminə böyük təntənə ilə başladı. 28 noyabr 1966-cı ildə əldə etdiyi yüksək nailiyyətlərinə görə məktəbə Azərbaycan SSRİ Ali Sovetinin adı verildi.

1973-cü il aprelin yeddisi məktəbin həyatında ən yadda qalan gün olmuşdur. Həmin gün məktəbin Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev ziyarət etmişdir. Bundan əlavə olaraq o, dövrdə Heydər Əliyev cənabları mütəmadi olaraq məktəbin fəaliyyəti ilə maraqlanır və buraxılış günlərində məzunlarla bir yerdə

olurdu. O zaman orduda Azərbaycanlı zabit kadrlarının artmasında Heydər Əliyev cənablarının böyük rolu olmuşdur.

1992-ci ilin aprel ayından məktəb Azəraycan Respublikasının hüquqi tabeliyinə keçirilmişdir. Motoatıcı qoşunlar üçün zabitlərdən başqa məktəbimiz on üç peşə üzrə zabitlər hazırlamağa başlamışdır.

2001-ci ildə Azərbaycan Respublikasının Prezidenti Cənab Heydər Əlirza oğlu Əliyevin fərmanı ilə məktəb Azərbaycan Ali Hərbi Məktəbi olaraq adlandırılmışdır.